# “AS İNŞAAT-N” Məhdud Məsuliyyətli Cəmiyyəti

31 dekabr 2018-ci il tarixinə

**Maliyyə Hesabatları**

# “AS İNŞAAT-N” Məhdud Məsuliyyətli Cəmiyyəti

## MÜNDƏRİCAT

Səhifə


| | |
|---|---|
| MÜSTƏQİL AUDİTORUN RƏYİ | 3 |
| 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ MALİYYƏ HESABATLARI: | |
| MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT | 4 |
| BALANS HESABATI | 5 |
| KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT | 6 |
| PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI | 7 |
| MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR | 8-18 |

| THE CHAMBER OF AUDITORS OF AZERBAIJAN REPUBLIC<br>Independent auditor<br>Garayev Vusal Mammadrasul | AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI 1995 | AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI<br>Sərbəst auditor<br>Qarayev Vüsal Məmmədrəsul oğlu |
|---|---|---|

VÖEN № 2004119802 ; İcazə № SA/363 ; 10.05.2017-ci il ; mail : vusalqarayev005@mail.ru,
AZ1026, Xətai rayonu , M.Hadi 66B, mob.: +994 50 611 98 33, +994 77 611 98 33

**MÜSTƏQİL AUDİTOR RƏYİ № 006**

"AS İNŞAAT-N" Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbərliyinə:

*Maliyyə Hesabatlarına dair Rəy*

Mən, "AS İNŞAAT-N" Məhdud Məsuliyyətli Cəmiyyətinin ("Cəmiyyət") 31 dekabr 2018-ci il tarixinə əlavə edilən balans hesabatının və həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti və kapitalında dəyişikliklər haqqında hesabatlardan və əsas uçot prinsiplərinin xülasəsindən və digər izahedici qeydlərdən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardım.

*Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti*

Hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə Rəhbərlik məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar daxildir: saxtakarllıq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminin yaradılması, tətbiq edilməsi və davam etdirilməsi; müvafiq uçot siyasətinin seçilməsi və tətbiq edilməsi; və şəraitdən asılı olaraq məqbul uçot təxminlərinin irəli sürülməsi.

*Auditorun məsuliyyəti*

Mənim məsuliyyətim apardığım audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Mən audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışam. Həmin standartların tələbinə görə, mən etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyam ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olum.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurların auditorların mühafizəsindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisəsinin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud mühasibat siyasətinin uyğunluğunun və rəhbərliyin mühasibat təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Mən hesab edirəm ki, audit rəyimi bildirmək üçün əsas verən kifayət qədər və uyğun auditor sübutu əldə etmişəm.

Mənim rəyimə görə, maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə onun maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**Sərbəst auditor**
**Qarayev Vüsal Məmmədrəsul oğlu**
**Azərbaycan Respublikası, Bakı şəhəri,**
**29 İyun 2019-cu il**

FİZİKİ ŞƏXS VÖEN: 2004119802 VÜSAL MƏMMƏDRƏSUL OĞLU QARAYEV TAXID: 2004119802 FREE BUSINESSMAN

# “AS İNŞAAT-N” Məhdud Məsuliyyətli Cəmiyyəti

## MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2018-Cİ İL TARİXDƏ BİTƏN İL ÜZRƏ
(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilmişdir)

| | Qeydlər | 2018 | 2017 |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 4 | 9.561.665,99 | 12.143.209,13 |
| Sair əməliyyat gəlirləri | | | |
| İstifadə edilmiş material ehtiyyatları | 5 | (3.266.127,99) | (7.125.381,73) |
| İşçi heyəti üzrə xərclər | 5 | (694.651,27) | (609.036,98) |
| Amortizasiya xərcləri | 5 | (575.900,94) | (725.517,92) |
| Digər əməliyyat xərcləri | 5 | 4.447.070,14 | (2.913.998,48) |
| Sair əməliyyat xərcləri | 5 | (2.285,36) | (44.162.29) |
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN MƏNFƏƏT (ZƏRƏR)** | | **575.630,29** | **725.111,73** |
| Maliyyə gəlirləri (xərcləri) | | | (71.709,50) |
| **VERGİDƏN ƏVVƏLKİ MƏNFƏƏT (ZƏRƏR)** | | **575.630,29** | **653.402,23** |
| Mənfəət vergisi xərcləri | | (115.126,06) | (139.512,90) |
| **XALİS MƏNFƏƏT (ZƏRƏR)** | | **460.504,23** | **513.889,33** |

**Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiqlənmişdir.**

**Direktor - Nuşravan Qoca oğlu Cəlilov**

**Baş mühasib - Kəmalə Elşad qızı Rzayeva**

***29 İyun 2019-cu il***

***29 İyun 2019-cu il***

8-18-ci səhifələrdə əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Maliyyə Hesabat haqqında Müstəqil Auditor Rəyi 3-cü səhifədə.

# "AS İNŞAAT-N" Məhdud Məsuliyyətli Cəmiyyəti

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2018-ci il TARİXİNƏ
(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilmişdir)

| | Qeydlər | 31 dekabr 2018 | 31 dekabr 2017 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| UZUNMÜDDƏTLİ AKTİVLƏR | | | |
| Qeyri-maddi aktivlər | | 14.300,00 | 14.300,00 |
| Torpaq, tikili və avadanlıqlar | 6 | 2.642.460,43 | 3.182.740,12 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | **2.656.760,43** | **3.197.040,12** |
| QISAMÜDDƏTLİ AKTİVLƏR: | | | |
| Mal-material ehtiyyatları | 7 | 7.260.463,14 | 2.198.328,67 |
| Qısamüddətli debitor borcları | 9 | 876.044,78 | 1.001.214,41 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 8 | 518.764,11 | 362.872,63 |
| Sair qısamüddətli aktivlər | | 907.703,05 | 588.047,18 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR:** | | **9.562.975,08** | **4.150.462,89** |
| **CƏMİ AKTİVLƏR:** | | **12.219.735,51** | **7.347.503,01** |
| **KAPİTAL VƏ PASSİVLƏR** | | | |
| **SAHİBKAR KAPİTALI:** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 10 | 100,00 | 100,00 |
| Kapital ehtiyatları | | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 974.393,56 | 513.889,33 |
| **CƏMİ KAPİTAL** | | **974.493,56** | **513.989,33** |
| **UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| Uzunmüddətli öhdəliklər | | 0,00 | 0,00 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖDƏLİKLƏR:** | | **0,00** | **0,00** |
| **QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | | |
| Faiz xərci yaradan öhdəliklər | 11 | 1.693.155,00 | |
| Qısamüddətli kreditor borcları | 13 | 1.219.590,11 | 2.140.488,61 |
| Sair qısamüddətli öhdəliklər | 13 | 8.332.496,84 | 4.693.025,17 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | **11.245.241,95** | **6.833.513,78** |
| **CƏMİ ÖHDƏLİKLƏR:** | | **11.245.241,95** | **6.833.513,78** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **12.219.735,51** | **7.347.503,11** |

**Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiqlənmişdir:**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti AS İNŞAAT-N Limited Liability Company Azerbaijan Republic

**Direktor - Nuşravan Qoca oğlu Cəlilov** | **Baş mühasib - Kəmalə Elşad qızı Rzayeva**

***29 İyun 2019-cu il*** | ***29 İyun 2019-cu il***

8-18-ci səhifələrdə əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Maliyyə Hesabat haqqında Müstəqil Auditor Rəyi 3-cü səhifədə.

# “AS İNŞAAT-N” Məhdud Məsuliyyətli Cəmiyyəti

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2018-ci il TARİXDƏ BİTƏN İL ÜZRƏ
(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilmişdir)

| | |
|---|---|
| **01 yanvar 2017-ci il tarixinə qalıq** | |
| Nizamnamə kapitalı | 100,00 |
| Kapital ehtiyatları | 0,00 |
| Bölüşdürülməmiş mənfəət/(ödənilməmiş zərər) | 513.889,33 |
| **CƏMİ** | **513.989,33** |
| **2017-ci il ərzində dəyişiklik** | |
| Nizamnamə kapitalı | |
| Kapital ehtiyatları | |
| Bölüşdürülməmiş mənfəət/(ödənilməmiş zərər) | 0,00 |
| **CƏMİ** | **0,00** |
| **01 yanvar 2018-ci il tarixinə qalıq** | |
| Nizamnamə kapitalı | 100,00 |
| Kapital ehtiyatları | 0,00 |
| Bölüşdürülməmiş mənfəət/(ödənilməmiş zərər) | 513.889,33 |
| **CƏMİ** | **513.989,33** |
| **2018-ci il ərzində dəyişiklik** | |
| Nizamnamə kapitalı | |
| Kapital ehtiyatları | |
| Bölüşdürülməmiş mənfəət/(ödənilməmiş zərər) | 460.504,23 |
| **CƏMİ** | **460.504,23** |
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | |
| Nizamnamə kapitalı | 100,00 |
| Kapital ehtiyatları | 0,00 |
| Bölüşdürülməmiş mənfəət/(ödənilməmiş zərər) | 974.393,56 |
| **CƏMİ** | **974.493,56** |

**Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiqlənmişdir.**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti AS İNŞAAT-N Limited Liability Company Azerbaijan Republic

**Direktor - Nuşravan Qoca oğlu Cəlilov** | **Baş mühasib - Kəmalə Elşad qızı Rzayeva**

***29 İyun 2019-cu il*** | ***29 İyun 2019-cu il***

8-18-ci səhifələrdə əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Maliyyə Hesabat haqqında Müstəqil Auditor Rəyi 3-cü səhifədə.

# "AS İNŞAAT-N" Məhdud Məsuliyyətli Cəmiyyəti

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2018-ci il TARİXDƏ BİTƏN İL ÜZRƏ
(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilmişdir)

| | Qeyd | 2018 | 2017 |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ:** | | | |
| **Vergidən sonrakı mənfəət** | | **460.504,23** | **513.889,33** |
| Mənfəət vergisi üzrə xərclər | | 115.126,06 | 139.512,90 |
| Amortizasiya xərcləri | | 575.900,94 | 725.517,92 |
| Faiz xərcləri | | | 306.214,56 |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar zərər (mənfəət) | | 2.285,36 | 0,00 |
| Məzənnə fərqi üzrə xərclər (gəlirlər) | | | 71.709,50 |
| **Dövriyyə vəsaitlərindəki hərəkətdən əvvəl əməliyyat fəaliyyətindən mədaxil** | | **1.153.816,59** | **1.756.844,21** |
| Ehtiyatların azalması (artması) | | (5.062.134,47) | (1.253.740,68) |
| Debtor borclarında azalma/(artım) | | 125.169,63 | 53.439,89 |
| Sair ehtiyyatlarda azalma /(artım) | | (319.655,87) | (26.554,20) |
| Kreditor borclarda artma/(azalış) | | (920.898,50) | 790.213,79 |
| Sair qısamüddətli öhdəliklərin artma/(azalış) | | 3.639.471,67 | 308.022,54 |
| Ödənilmiş mənfəət vergisi | | (115.126,06) | (139.512,90) |
| Ödənilmiş faizlər | | 0,00 | (306.214,56) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(1.499.357,01)** | **1.182.498,09** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ:** | | | |
| Əsas vəsaitin satışı | | 80.000,00 | |
| Əsas vəsaitlərin alınması | | (117.906,51) | (1.174.861,13) |
| **İnvestisiya fəaliyyətində yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(37.906,51)** | **(1.174.861,13)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ** | | | |
| Borcun alınmasına görə PV-nin daxilolması | | 2.032.755,00 | |
| Borcun ödənilməsinə görə PV-nin xaricolması | | (339.600,00) | |
| Dividendlər və buna oxşar şəkildə pul vəsaitlərinin xaricolmaları | | | (513.889,33) |
| **Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti artması (azalması)** | | **1.693.155,00** | **(513.889,33)** |
| ***Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma (azalma)*** | | ***155.891,48*** | ***(506.252,37)*** |
| ***Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti*** | | | |
| **İlin əvvəlində pul vəsaitləri və onlarin ekvivalentləri** | | **362.872,63** | **940.834,50** |
| ***Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma*** | | ***155.891,48*** | ***(506.252,37)*** |
| ***Xarici valyuta məzənnələrinin dəyişməsinin təsiri*** | | | ***(71.709,50)*** |
| **İlin sonunda pul vəsaitləri və onlarin ekvivalentləri** | **8** | **518.764,11** | **362.872,63** |

**Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiqlənmişdir.**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti AS İNŞAAT-N Limited Liability Company Azerbaijan Republic

**Direktor - Nuşrəvan Qoca oğlu Cəlilov** | **Baş mühasib - Kəmalə Elşad qızı Rzayeva**

***29 İyun 2019-cu il*** | ***29 İyun 2019-cu il***

8-18-ci səhifələrdə əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Maliyyə Hesabat haqqında Müstəqil Auditor Rəyi 3-cü səhifədə.

## 1. FƏALİYYƏTİ

**"AS İNŞAAT-N" Məhdud Məsuliyyətli Cəmiyyəti** ("Cəmiyyət"), tamamilə xüsusi mülkiyyətdədir və Azərbaycan Respublikasında qanunla qadağan olunmayan bütün fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra məşğul olan cəmiyyətdir.

Cəmiyyət "5" Yanvar 2010-cu il tarixdə 1001799541 nömrəli dövlət qeydiyyatına alınmışdır.

Cəmiyyət Bakı şəhərində yerləşir. Cəmiyyətin hüquqi ünvanı belədir: AZ1054, Bakı şəhəri, Resulzadə qəsəbəsi, Binəqədi şossesi, ev 195 C.

Cəmiyyətinin işçilərinin orta sayı 2017-ci və 2018-ci illər üçün müvafiq olaraq 73 və 56 nəfərdir.

## 2. MÜHASİBAT UÇOTU VƏ MALİYYƏ HESABATLARININ ƏSASLARI

***Hesabatı təqdim etməyin əsasları.*** Cəmiyyət mühasibat uçotunu Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Vergi Qanunvericiliyinə əsasən aparır və beynəlxalq standartlara uyğun maliyyə hesabatlarını Azərbaycan Manatı ilə hazırlayır. Təqdim edilən maliyyə hesabatları, əsas vəsaitlərin qiymətdən düşməsi istisna olmaqla, ilkin dəyər metoduna uyğun aparılan mühasibat qeydləri əsasında hazırlanmışdır.

Cəmiyyət mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatı xərclərin xarakter təsnifatına əsaslanan elementlərinə uyğun olaraq təqdim edir. Cəmiyyət belə qəbul edir ki, bu tip təqdimetmə prinsipi maliyyə hesabatının oxuyucuları üçün daha ətraflı məlumat verir, belə ki, təsərrüfat nöqteyi-nəzərən əməliyyatların aparılmasının yollarını daha düzgün əks etdirən bir yanaşmadır. Maliyyə vəziyyəti haqqında hesabat isə maddələrin cari və uzunmüddətli hissələrə bölünməsi prinsipinə dayanan bir təqdimat formasıdır.

**Seqmentlər üzrə hesabat.** Seqment Cəmiyyətin tamamilə fərqli bir yönü kimi istehsal edən yaxud xidmət göstərən (kommersiya seqmenti) və ya müəyyən iqtisadi mühitdə istehsal edən yaxud xidmət göstərən (coğrafi seqment) və eyni zmanda risk və ya ayrılıqda gəlir predmeti olan fəaliyyəti şəklində tanımlanır. Xarici müştərilərdən alınan ümumu gəlirin böyük hissəsini cəlb edən segment, ya da bütün digər segmentlərinin gəlir, maliyyə nəticələri və aktivlərin dəyərlərinin 10%-dən çox olan segmentin ayrıca hesabatları hazırlanmalıdır.

**Əməliyyat valyutası.** Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Manatı ilə ("manat") əks olunmuşdur.

***Torpaq, tikili və avadanlıqlar.*** Torpaq, tikili və avadanlıqlar, yığılmış amortizasiya və qiymətdən düşmə məbləğləri çıxılmaqla ilkin dəyərində qeydə alınır.

Torpaq, tikili və avadanlıqlara əlavələr maya dəyəri ilə qeydə alınır. Əvəz edilmiş aktivlər istismardan çıxarılır və borclar üzrə yaranan xərclər kapitallaşdırılır. Xidmət və xırda istismar xərcləri çəkildiyi zaman xərcə aid edilir. Torpaq, tikili və avadanlıqların təmir məsrəfləri Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-19 nömrəli 23 sentyabr 2014-cü il tarixli Qərarı ilə təsdiq edilmiş "Təmir məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalar"a uyğun olaraq mühasibat uçotunda əks etdirilir. Torpaq, tikili və avadanlıqların istifadəyə yararsız hala gəlməsindən və ya silinməsindən yaranan gəlir və zərər, yarandığı zaman mühasibat uçotunda əks etdirilir, habelə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabata daxil edilir.

Cəmiyyət torpaq, tikili və avadanlıqların amortizasiyasını azalan qalıq dəyəri metodunu tətbiq etməklə hesablayır.

Torpaq, tikili və avadanlıqlara tətbiq edilən amortizasiyanın dərəcələri aşağıdakı kimidir:

| | |
|---|---|
| Binalar, qurğular və ötürücü qurğular | 7 % |
| Maşın və avadanlıqlar | 20 % |

## 2. MÜHASİBAT UÇOTU VƏ MALİYYƏ HESABATLARININ ƏSASLARI (davamı)

| | |
|---|---|
| Nəqliyyat vasitələri | 25 % |
| Digər torpaq, tikili və avadanlıqlar | 20 % |

Torpaq, tikili və avadanlıqların 34 saylı "Aktivlərin Qiymətdən Düşməsi" Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən təhlil işi aparılmışdır.

**Mənfəət vergisi.** Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında Azərbaycanın qüvvədə olan və ya hesabat tarixinə qüvvəyə minmiş qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci, cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və mənfəət və zərər hesabatında qeydə alınır. Buna istisna olaraq bilavasitə sahibkar kapitalında eyni və ya başqa dövrdə uçota alınan əməliyyatların vergi təsiri müvafiq olaraq sahibkar kapitalında əks olunur.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisindən başqa digər vergilər digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları, qüvvədə olan və ya hesabat tarixinə qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır. Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərdən yığılmış vergi zərərləri o zaman hesablanır ki, bu çıxılmaların realizasiya oluna bilməsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb ediləcək mənfəətin mövcudluğu ehtimal edilsin.

***Mal-material ehtiyatları.*** Mal-material ehtiyatları maya dəyəri ilə xalis satış dəyərindən ən aşağı olanı ilə qeydə alınır. Mal-material ehtiyatlarının maya dəyəri, orta çəkili maya dəyəri metodu ilə müəyyən edilir. Hazır məhsul və quraşdırılası avadanlıqlar və tikinti işlərinin maya dəyərinə xammal, işçi qüvvəsi və digər birbaşa xərclər daxildir. Xalis satış dəyəri, işin başa çatdırılma və satış xərcləri çıxılmaqla, fəaliyyətin adi gedişində təxmin edilən satış qiymətidir.

**Debtor borcları və digər borclar.** Debtor borcları və digər borclar aktiv bazarda satılmayan və sabit və ya müəyyən ödəmə sisteminə tabe tutulan qeyri-törəmə maliyyə aktivləridir. Cəmiyyətin dərhal satmaq istədiyi və ya satmaq niyyəti olduğu aktivlər bu kateqoriyada təsnifləşdirilə bilməz. Debtor borclar və digər borclar effektiv faiz dərəcəsinə uyğun olaraq amortizasiya olunmuş maya dəyərində əks olunur.

**Ehtimal edilən itkilərə ehtiyat ayırmaları.** Maliyyə aktivlərinin və ya aktivlər qrupunun qiymətdən düşməsi ilə bağlı rəhbərliyin əlində hər hansı bir obyektiv sübut olduğu hallarda Cəmiyyət bu aktivlər üzrə itkiləri qarşılamaq məqsədilə ehtiyat yaradır. Ehtimal edilən itkilər, gələcəkdə zəmanət və alınan girovlar da daxil olmaqla, amortizasiya olunmuş maya dəyərində ölçülən aktivlər üzrə gələcəkdə əldə edilə biləcək pul vəsaitlərinin, maliyyə aktivinin yaranması tarixində ilkin effektiv faiz dərəcəsindən istifadə edərilərək diskont edilməsi nəticəsində yaranmış dəyərlə bu aktivlərin qalıq dəyəri arasındakı fərq kimi hesablanır. Sonrakı dövrlərdə, ehtimal edilən itkinin məbləği azalırsa, və azalış həqiqətən də ehtiyat yaradılmasından sonra baş vermiş hər hansı bir hadisə ilə bağlıdırsa, bu zaman belə aktivlər üzrə yaradılan ehtiyatlar geri qaytarılır.

Ehtimal edilən itkilərin hesablanması aktivlər üzrə risk analizinə əsaslanır, və yaradılan ehtiyat bu aktivlər üzrə itkiləri qarşılamaq üçün kafi hesab edilir. Ehtiyatlar, portfel üçün xüsusi əhəmiyyət kəsb edən risk daşıyan aktivlərin fərdi olaraq, daha az əhəmiyyətli aktivlərin isə kollektiv şəkildə qiymətləndirilməsi əsasında yaradılır.

## 2. MÜHASİBAT UÇOTU VƏ MALİYYƏ HESABATLARININ ƏSASLARI (davamı)

Ehtimal edilən itkilərdəki dəyişikliklər birbaşa mənfəət və zərər hesabatına aid edilir, və balansda yaradılmış ehtiyatlar aktivlərin qalıq dəyərini təqdim edərkən onların balans dəyərindən çıxılır. Cəmiyyət ehtiyat yaradılması üçün obyektiv sübutun olmasına baxarkən borc götürənin və ya qiymətli kağızı buraxan tərəfin likvidlik, ödəmə qabiliyyəti, biznes və maliyyə risklərinə məruz qalması, bu kimi maliyyə aktivlərinin pula çevriləbilmə qabiliyyətindəki dinamika, milli və yerli iqtisadiyyatın inkişafındakı trendlər, alınmış zəmanət və girovların bazar dəyəri kimi göstəricilərdən də istifadə edir. Bu və digər göstəricilər, fərdi olaraq və ya qrup şəklində aktivlər üzrə ehtimal edilən zərərin yaranması üçün obyektiv sübutun olmasını təmin edir.

Cəmiyyət amortizasiya olunmuş maya dəyəri üzrə ölçülən aktivlər üçün ehtimal olunan itkilər üzrə ehtiyat hesabı yaradır, maya dəyəri üzrə ölçülən aktivlər üçün isə birbaşa silinmə üsulundan istifadə edir.

Qeyd etmək lazımdır ki, itkilərin təxmin edilməsi müəyyən qədər subyektivlik daşıyır. Müəyyən dövrlərdə Cəmiyyətin faktiki uğradığı zərərlərin yaradılan ehtiyat məbləğindən fərqli olmasının mümkünlüyünə baxmayaraq, ehtiyatın mümkün olan zərərləri qarşılamaq üçün kifayət olması əsasən rəhbərliyin qərarıdır.

**Pul vəsaitləri və onların ekvivalentləri.** Pul vəsaitləri və onların ekvivalentlərinə kassada olan nağd pul vəsaitləri, bank hesablarındakı tələb edilənədək və ilkin ödəmə müddəti on iki ay və ya az olan digər qısamüddətli və yüksək likvidli investisiyalar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri effektiv faiz dərəcəsi metoduna əsasən hesablanmış amortizasiya olunmuş maya dəyəri ilə qeydə alınır. Bloklaşdırılmış qalıqlar pul vəsaitlərinin hərəkəti hesabatının tərtib edilməsi məqsədilə pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Mübadiləsi və ya hesabat tarixindən sonra minimum on iki ay ərzində öhdəliklərin yerinə yetirilməsi üçün istifadəsi məhdudlaşdırılan pul vəsaitlərinin qalıqları digər uzunmüddətli aktivlərə aid edilir.

**Dayandırılmış əməliyyatlar.** Dayandırılmış əməliyyatlar Cəmiyyət tərəfindən aparılmış o əməliyyatlardır ki, Cəmiyyət ya ondan artıq təcrid olunmuşdur, ya da satış üçün saxlanılanlar olaraq təsnifləndirilmişdir və: (a) ayrı və əhəmiyyətli biznes xəttini və ya fəaliyyətin cografi sahəsini təmsil edir; (BH) ayrı və əhəmiyyətli biznes xəttinin və ya fəaliyyətin cografi sahəsinin silinməsi Cəmiyyətin ümumi qəbul olunmuş fəaliyyət planının bir hissəsini təşkil edir; və ya (c) təkrar satılması üçün nəzərdə tutulan törəmə müəssisənin alışıdır. Dayandırılmış əməliyyatlar üzrə mənfəət və pul vəsaitlərinin axını, əğər varsa, cari və müqayisəli rəqəmlər olaraq ayrıca təqdim olunmalıdırlar.

**Əlavə dəyər vergisi.** Bütün satış və alışlara 18% faiz dərəcəsi ilə Əlavə Dəyər Vergisi ("ƏDV") tətbiq edilir. Satışdan hesablanan əlavə dəyər vergisi aşağıdakı tarixlərdən hansının daha tez baş verməsindən asılı olaraq vergi orqanlarına ödənilir: (a) müştərilərdən debitor borclarının yığılması və ya (BH) müştərilərə mal və ya xidmətlərin təqdim olunması. Malların və xidmətlərin alınmasına görə ƏDV, ödəniş aparıldığı vaxt büdcədən tələb olunur və ƏDV öhdəliyi ilə qarşılıqlı şəkildə əvəzləşdirilərək balans hesabatında xalis məbləğdə göstərilir. Ödənişlərin aparılmadığı və ya alınmadığı satış və alışlar üzrə ƏDV balans hesabatında xalis qalıqla əks etdirilir. Debitor borcların və digər borcların qiymətdəndüşməsi üzrə ehtiyat yaradıldıqda, qiymətdəndüşmə üzrə zərər ƏDV daxil olmaqla ümumi borc məbləği üçün qeydə alınır.

**Borc vəsaitləri.** Borc götürülmüş vəsaitlər əməliyyat xərcləri çıxılmaqla, alınmış məbləğin ədalətli dəyərində qeydə alınır (əməliyyat qiymətindən xeyli fərqləndikdə, analoji vasitə üçün qüvvədə olan bazar faiz dərəcəsindən istifadə etməklə müəyyən edilir). Sonradan, borc götürülmüş vəsaitlər effektiv gəlir metodundan istifadə etməklə amortizasiya olunmuş maya dəyərində qeydə alınır; alınmış məbləğin ədalətli dəyəri (əməliyyat xərcləri çıxılmaqla) ilə qaytarılacaq məbləğ arasındakı fərq, borcların qüvvədə olduğu müddət ərzində faiz xərci kimi tanınır.

## 2. MÜHASİBAT UÇOTU VƏ MALİYYƏ HESABATLARININ ƏSASLARI (davamı)

**Kreditor borcları və digər borclar.** Kreditor borcları və digər borclar qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı qeydə alınır və effektiv faiz dərəcəsi metoduna əsasən amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

**Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar.** Ehtiyatlar, Cəmiyyət keçmişdə baş vermiş müəyyən hadisənin nəticəsində hüquqi və ya könüllü şəkildə qəbul edilmiş öhdəliklərə malik olduqda maliyyə hesabatlarında əks etdirilir. Həmin öhdəliklərin yerinə yetirilməsi üçün resursların sərf olunması ehtimalının yüksək olması və öhdəliklərin məbləğinin kifayət qədər dəqiqliklə müəyyən edilməsi bu ehtiyatların tanınmasını şərtləndirən amillərdir. Bir sıra analoji öhdəliklər mövcud olduqda, həmin öhdəliklərin yerinə yetirilməsi məqsədilə resursların sərf olunması ehtimalı ümumilikdə bütün öhdəliklər üçün müəyyən edilir.

**Xarici valyutanın yenidən qiymətləndirilməsi.** Cəmiyyətin funksional valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional və hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır.

Monetar aktiv və passivlər, ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən Cəmiyyətin funksional valyutasına çevrilir.

Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və ARMB-nin ilin sonuna olan rəsmi valyuta məzənnəsi ilə monetar aktiv və passivlərin funksional valyutaya çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərər hesabatında qeydə alınır.

**Gəlirlərin uçotu.** Satışdan əldə edilən gəlirlər mal təqdim edilməsini təsdiq edən ilkin uçot sənədlərinə əsasən qeydə alınır. Gəlirlər hesablama metodu ilə qeydə alınır. Gəlir rəqəmləri əlavə dəyər vergisini çıxmaqla göstərilir. Əsas vəsaitlərin icarəyə verilməsindən əldə edilən gəlirlər 17 saylı "İcarə" adlı Mühasibat Uçotunun Beynəlxalq Standartına uyğun olaraq qeydə alınır.

**Maliyyə gəlir və xərcləri.** Maliyyə gəlir və xərcləri borc vəsaitləri üzrə faiz xərcləri, investisiya qoyuluşları üzrə faiz gəlirləri, məzənnə fərqlərindən və sair bu tip xərclərdən ibarətdir. Borc vəsaitləri ilə əlaqədar çəkilmiş bütün faiz və digər xərclər çəkildiyi zaman xərcə silinir. Faiz gəlirləri isə aktiv üzrə effektiv gəlirliliyi nəzərə almaqla, hesablandığı zaman qeydə alınır.

**Əmək haqqı xərcləri və müvafiq ayırmalar.** Əmək haqları, məvaciblər, Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və digər imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır.

**Pensiya ödənişləri.** Cəmiyyət öz işçilərinə pensiya və ya əmək fəaliyyətindən sonrakı dövr ərzində digər ödənişlər üzrə heç bir ödəniş həyata keçirmir. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, Cəmiyyət işçilərin əmək haqlarından pensiya ödənişləri tutaraq, dövlət sosial müdafiə fonduna köçürür. Ödənişlər həyata keçirildikdən sonra, Cəmiyyətin pensiya təminatı ilə əlaqədar öhdəlikləri dayanır.

Təqaüdə çıxdıqdan sonra bütün pensiya ödənişləri birbaşa olaraq dövlət sosial müdafiə fondu tərəfindən idarə olunur.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ MÜHASİBAT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyət aktiv və öhdəlikərinin gələcək dövrlərdəki qalıq dəyərlərinə təsir edə biləcək müxtəlif təxmin və ehtimallara əsaslanan mühasibat qeydləri aparır. İstifadə olunan təxminlər və mühakimələr rəhbərliyin təcrübəsinə və digər faktorlara əsaslanır və daim dəyərləndirilir.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ MÜHASİBAT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR (davamı)

Rəhbərlik Cəmiyyətin uçot siyasətinin tətbiqi prosesi boyu təxminlərdə istifadə etdiyi mühakimələrindən başqa yerlərdə də bir neçə mühakimələr aparır.

Maliyyə hesabatlarında qeyd olunan məbləğlər təsir gücünə malik mühakimələr və eləcə də, aktiv və passivlərin növbəti maliyyə ilindəki qalıq dəyərlərini dəyişdirilməsində istifadə olunan təxminlər aşağıdakılardan ibarətdir:

**Şübhəli alacaqlar üzrə zərər üzrə ehtiyyat.** Müştərilərdən alınacaq vəsaitlərin toplanıla bilən məbləğinin müəyyənləşdirilməsi üçün qiymətdəndüşməyə yetərincə obyektiv sübutun olması vacibdir. Tam zərər çəkmiş alacaqlar müəyyən olunduqları zaman xərcə silinirlər. Qiymətdəndüşmə ortaya çıxdığı vaxt hər maddə üçün ayrıca fərdi yanaşma ilə ehtiyyat ayrılır. Qiymətdəndüşmə tam olaraq ortaya çıxmadığı vaxt kollektiv yanaşma ilə ehtiyyat dəyərləndirilir. Nəticədə, istər fərdi dəyərləndirmə olsun, istər kollektiv dəyərləndirmə, istərsə də qiymətdəndüşməyə obyektiv sübutun zamanı müəyyənləşsin, hamısı mühakimə aparmağı tələb edir, və bu debtorların qalıq dəyərini əhəmiyyətli dərəcədə dəyişdirmək gücünə malikdir.

**Aktivlərin qiymətdəndüşməsi testi.** Maliyyə aktivləri və maliyyə aktivləri qrupu o zaman qiymətdən düşmüş sayılır ki, Cəmiyyət həmin aktivlərlə bağlı pul vəsaiti hərəkətinə dair təxminləri dəyişdirəcək "itki hadisəsi"nin olduğuna dair əminlik qazansın. Mümkündür ki, qiymətdəndüşməyə səbəb olan konkret bir hadisəni müəyyən etmək çətin olsun, lakin itki hadisəsi baş verdikdə mühüm mühakimələr aparmaq ehtiyacı yaranacaqdır.

**Mal və material ehtiyyatların xalis satış dəyəri.** Mal-material ehtiyyatlar üzrə zərər üzrə ehtiyatın müəyyənləşməsi bir təxmin prosesidir. Mal-material ehtiyyatları zərər gördükdə, tam və ya qismən yararsız hala gəldikdə, satış qiyməti azaldıqda, onlar qiymətdəndüşmüş sayılır, və mal-material ehtiyyatların qalıq dəyərinin onun təxmin edilən satış dəyərinə azaldılır. İstənilən halda satış dəyəri mal-material ehtiyyatların toplana bilən dəyərinin ən yaxşı təxminini əks etdirir və balans tarixində mövcud olan ən etibarlı sübuta əsaslanır. Ehtiyyatın ayrılmasında və silinmədə istifadə olunan metodlar yaşlanma analizi, texniki dəyərləndirmə və balans tarixindən sonrakı dövrdə baş vermiş hadisələrin analizidir.

**Təxirə salınmış verginin hesablanması.** Təxirə salınmış vergi aktivi və passivinin hesablanması bir sıra fərziyyələrin istifadəsini tələb edir. Məsələn, Cəmiyyət müvəqqəti fərqlərin aradan qalxdığı zamanı, və ya yaxın zamanda ortadan qalxmayacaqsa onun qalxmayacağını, ortadan qalxdığı dövrdə qüvvədə olan vergi dərəcəsini təxmin etməlidir.

Təxirə salınmış vergi aktivi ən sonda gələcək dövrlərdə bu aktivin realizasiyası olması üçün lazımı səviyyədə mənfəətin olub-olmamasından asılıdır. Təxirə salınmış vergi aktivi yalnız o zaman tanınır ki, gələcək dövrlərdə bu aktivin realizasiyası olması üçün lazımı səviyyədə mənfəət mövcud olacaqdır, və bu müəssisə vergiyə cəlb olunan yetərincə mənfəət qazanacaq. Bu Müəssisənin ümumi vergi planlaşdırılması ilə əlaqədar fərziyyələr irəli sürməsini və gələcək dövrlərdə vergi qanunvericiliyində baş vermiş dəyişiklikləri özündə əks etdirən dövrü dəyərləndirməni tələb edir. Bununla yanaşı, təxirə salınmış vergi aktivi və passivinin hesablanması müəssisənin aktivin qalıq dəyərinin bərpası və ya passivin ödənilməsi üçün istifadə etdiyi yolları özündə əks etdirməlidir.

## 4. GƏLİRLƏR

31 dekabr 2018-ci il və 31 dekabr 2017-ci ildə tamamlanan illər üzrə gəlirlər aşağıdakı tərkibdə olmuşdur:

| | 2018 | 2017 |
|---|---|---|
| **GƏLİRLƏR** | | |
| Malaların satışından gəlir | 125.460,95 | |
| İşlərin görülməsindən və xidmətlərin östərilməsindən gəlir | 9.436.205,04 | 12.143.209,13 |
| **Cəmi gəlirlər** | **9.561.665,99** | **12.143.209,13** |

## 5. XƏRCLƏR

5.1. 31 dekabr 2018-ci və 31 dekabr 2017-ci ildə tamamlanan illər üzrə əsas əməliyyat xərcləri aşağıdakı tərkibdə olmuşdur:

| | 2018 | 2017 |
|---|---|---|
| İstifadə olunan materiallar | 3.266.127,99 | 7.125.381,73 |
| Əmək haqqı xərcləri | 569.003,60 | 499.212,00 |
| Əmək haqqı xərclərinə görə ayırmalar | 125.647,67 | 109.824,98 |
| Amortizasiya xərcləri | 575.900,94 | 725.517,92 |
| Digər əməliyyat xərcləri | 4.447.070,14 | 2.913.998,48 |
| **Cəmi xərclər** | **8.983.750,34** | **11.373.935,11** |

5.2. 31 dekabr 2018-ci və 31 dekabr 2017-ci ildə tamamlanan illər üzrə sair əməliyyat xərcləri aşağıdakı tərkibdə olmuşdur:

| | 2018 | 2017 |
|---|---|---|
| Sair əməliyyat xərcləri | 2.285,36 | 44.162,29 |
| **Cəmi xərclər** | **2.285,36** | **44.162,29** |

## 6. TORPAQ, TİKİLİ VƏ AVADANLIQLAR

Torpaq, tikili və avadanlıqlar aşağıdakılardan ibarətdir:

| | **Binalar, qurğular, ötürücü qurğular** | **Maşın və avadanlıqlar** | **Nəqliyyat vasitələri** | **Digər əsas vəsaitlər** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **BALANS DƏYƏR** | | | | | |
| 1 yanvar 2017-ci il | 228.483,70 | 1.771.928,91 | 743.484,30 | | 2.743.896,91 |
| Əlavələr | 122.690,58 | 806.247,12 | 231.445,75 | 3.977,68 | 1.164.361,13 |
| Köçürmələr | | | | | |
| Silinmələr | (24.582,20) | (506.171,27) | (193.968,91) | (795,54) | (725.517,92) |
| 1 yanvar 2018-ci il | 326.592,08 | 2.072.004,76 | 780.961,14 | 3.182,14 | 3.182.740,12 |
| Əlavələr | | 15.619,16 | 44.260,95 | 54.597,05 | 114.477,16 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Köçürmələr | | | | | |
| Silinmələr | (94.522,31) | (416.888,37) | (141.596,99) | (1.749,18) | (654.756,85) |
| 31 dekabr 2018-ci il | 232.069,77 | 1.670.735,55 | 683.625,10 | 56.030,01 | 2.642.460,43 |

Quraşdırılası avadanlıqlar və tikinti işləri istehsala daxil edilməmiş torpaq, tikili və avadanlıqların faktura dəyərini əks etdirir. Bu cür torpaq, tikili və avadanlıqlar üzrə tam istifadəyə hazır olan zamana qədər heş bir köhnəlmə hesablanmır.

Digər torpaq, tikili və avadanlıqlar isə ofis mebeli və qurğuları və digər avadanlıqdan ibarətdir.

## 7. MAL-MATERİAL EHTİYATLARI

31 dekabr 2017-ci il və 31 dekabr 2018-ci il tarixlərinə ehtiyatları üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| | 2018 | 2017 |
|---|---|---|
| Hazır məhsul | 467.930,00 | 467.930,00 |
| Mallar | 6.631.329,08 | 1.707.648,08 |
| Sair ehtiyatlar | 161.204,06 | 22.750,59 |
| **31 dekabr tarixlərinə qalıq** | **7.260.463,14** | **2.198.328,67** |

## 8. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

31 dekabr 2017-ci il və 31 dekabr 2018-ci il tarixlərinə pul vəsaitləri və onların ekvivalentləri üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| | 2018 | 2017 |
|---|---|---|
| Bank hesabları – milli valyuta ilə | 136.214,73 | 37.206,99 |
| - xarici valyuta ilə | 351.943,95 | 300.550,81 |
| Kassa | 30.024,52 | 25.099,52 |
| ƏDV depozit hesabı | 580,91 | 15,31 |
| **31 dekabr tarixlərinə qalıq** | **518.764,11** | **362.872,63** |

31 dekabr 2017-ci il tarixlərinə pul vəsaitləri və pul ekvivalentlərinin qalığına daxil olan 37.206,99 manat milli valyuta ilə, 300.550,81 manat valyuta ilə bank hesablarının, 25.099,52 manat kassa və 15,31 manat ƏDV depozit hesabı üzrə və 31 dekabr 2018-ci il tarixlərinə pul vəsaitləri və pul ekvivalentlərinin qalığına daxil olan 136.214,73 manat milli valyuta ilə, 351.943,95 manat valyuta ilə bank hesablarının, 30.024,52 manat kassa və 15,31 manat ƏDV depozit hesabı üzrə 580,91 manat pul vəsaitləri və pul ekvivalentlərinin qalığıdır.

## 9. DEBİTOR BORCU VƏ DİGƏR BORCLAR

31 dekabr 2017-ci il və 31 dekabr 2018-ci il tarixlərinə debitor borclar üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| | 2018 | 2017 |
|---|---|---|
| Vergiyə görə debitor borcları | 510.308,28 | 240.102,31 |
| Sair debitor borc | 365.736,50 | 761.112,10 |
| **31 dekabr tarixlərinə qalıq** | **876.044,78** | **1.001.214,41** |

## 10. SAHİBKAR KAPİTALI

Cəmiyyət 100% xüsusidir. Cəmiyyətin nizamnamə kapitalı 100 (bir yüz) manat həcmindədir və hər biri 50 (əlli) manat olmaqla 2 (iki) paydan ibarətdir.

## 11. BORCLAR

31 dekabr 2017-ci il və və 31 dekabr 2018-ci il tarixlərinə Cəmiyyətin borc vəsaitləri aşağıdakı kimi olmuşdur:

| | 2018 | 2017 |
|---|---|---|
| **Cəlb edilmiş borclar** | | |
| Bank krediti | 1.693.155,00 | 0,00 |
| **Cəmi borclar** | **1.693.155,00** | **0,00** |

## 12. TƏXİRƏSALINMIŞ VERGİ

Aşağıdakı cədvəl təxirəsalınmış verginin açıqlamasını göstərir:

| TƏXİRƏSALINMIŞ VERGİ | 2018 | 2017 |
|---|---|---|
| Təxirəsalınmış vergi aktivləri | 0,00 | 0,00 |
| Təxirəsalınmış vergi öhdəlikləri | 0,00 | 0,00 |
| **31 dekabr tarixinə xalis balans** | **0.00** | **0.00** |

## 13. KREDİTOR BORCLARI VƏ DİGƏR BORCLAR

31 dekabr 2017-ci il və və 31 dekabr 2018-ci il tarixlərinə kreditor borclar üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| | 2018 | 2017 |
|---|---|---|
| **Kreditor borcları və digər borclar** | | |
| Kreditor borc | 1.219.590,11 | 2.140.488,61 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 0,00 | 0,00 |
| **Cəmi borclar** | **1.219.590,11** | **2.140.488,61** |

31 dekabr 2017-ci il və və 31 dekabr 2018-ci il tarixlərinə sair öhdəliklər üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| | 2018 | 2017 |
|---|---|---|
| **Sair öhdəliklər** | | |
| Alınmış avanslar | 3.864.797,74 | 1.734.822,75 |
| Digər öhdəliklər | 4.467.699,10 | 2.958.202,42 |
| **Cəmi borclar** | **8.332.496,84** | **4.693.025,17** |

## 14. ƏLAQƏLİ ŞƏXSLƏRLƏ ƏMƏLİYYATLAR

Tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla ümumi nəzarət altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi forması deyil, mahiyyəti nəzərə alınır.

Cəmiyyətin əhəmiyyətli əməliyyatlar həyata keçirdiyi əlaqəli tərəflərlə münasibətlərin xarakteri və 31 dekabr tarixinə əhəmiyyətli mühasibat qalıqları aşağıda göstərilir.

| | 31 dekabr 2018 | 31 dekabr 2017 |
|---|---|---|
| Debitor borclar və digər borclar | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 0.00 | 0.00 |
| Kreditor borclar və digər borclar | | |
| Uzunmüddətli kredit borcları | | |
| Qısamüddətli kredit borcları | 0.00 | 0.00 |

2018-ci və 2017-ci illər üzrə əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıdakı kimidi :

| | 2018 | 2017 |
|---|---|---|
| Gəlir | 0.00 | 0.00 |
| Xərclər | 92.744,00 | 117.845,00 |

31 dekabr tarixlərində tamamlanan illər üzrə əsas rəhbər işçilərər ödənişlər haqqında məlumat aşağıda təqdim edilir:

| | 2018 | 2017 |
|---|---|---|
| Qısamüddətli ödənişlər: | | |
| Əmək haqqı | 92.744,00 | 117.845,00 |
| Qısamüddətli mükafatlar | 0.00 | 0.00 |
| | **92.744,00** | **117.845.00** |

## 15. ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ

**Məhkəmə prosedurları.** Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Cəmiyyətə qarşı irəli sürülə biləcək iddialarla əlaqədar, rəhbərlik öz təxminlərinə, daxili və xarici peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

**Vergilər.** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər. Bunun nəticəsində, Cəmiyyətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

31 dekabr 2018-ci il və 31 dekabr 2017-ci il tarixlərinə rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Cəmiyyətin

mövqeləri qorunacaqdır. Rəhbərlik, mövqelərinin qoruna bilməyəcəyi hallarla əlaqədar hazırkı maliyyə hesabatlarında müvafiq məbləğləri hesablamış və mühasibat qeydlərinə girmişdir.

**Sığorta polisi.** Cəmiyyət aktivləri, əməliyyatları, ictimai öhdəlikləri və yaxud digər sığorta oluna bilən riskləri ilə bağlı sığorta polisi saxlamır. Müvafiq olaraq Cəmiyyət həmin risklərə məruz qalır.

**İqtisadi mühit.** Son illər Azərbaycan Respublikasında iqtisadi şərait inkişaf etsə də, iqtisadi vəziyyətdə yeni yaranmış bazar iqtisadiyyatına səciyyəvi xüsusiyyətlər müşahidə olunmaqdadır. Bunlara, aşağıdakı xüsusiyyətlər daxildir (lakin bunlarla kifayətlənmir):

- milli valyutanın xarici ölkələrdə sərbəst dönərli valyuta hesab edilməməsi;
- valyuta üzrə mürəkkəb nəzarət prosedurlarının olması;
- neft qiymətlərindəki dəyişikliklərdən asılılığın mövcudluğu;
- bazarda borc və pay qiymətli kağızların likvidlik səviyyəsinin aşağı olması.

**Ətraf mühitin mühafizəsi ilə bağlı məsələlər.** Cəmiyyət, Azərbaycan Respublikasının tikinti sahəsində uzun illərdir ki fəaliyyət göstərir. Hazırda Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi haqqında qanunvericilik təkmilləşdirilir və ona əməl olunması ilə bağlı hökumət orqanlarının mövqeyinə yenidən baxılır. Cəmiyyət, ətraf mühitin mühafizəsi ilə bağlı öhdəliklərini mütəmadi olaraq qiymətləndirir. Öhdəliklər müəyyən edildikdə, onlar dərhal hesabatlarda əks etdirilir. Mövcud qanunvericiliyin və normativ aktların dəyişməsi nəticəsində yarana bilən, eləcə də məhkəmə praktikası nəticəsində kifayət qədər dəqiqliklə qiymətləndirilə bilməyən potensial öhdəliklər əhəmiyyətli ola bilər. Rəhbərlik hesab edir ki, ətraf mühitin mühafizəsi haqqında qüvvədə olan qanunvericiliyə əməl olunması üzrə mövcud nəzarət sisteminin şərtlərində ətraf mühitə zərər vurulması ilə bağlı əhəmiyyətli öhdəliklər mövcud deyil.

## 16. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Cəmiyyət öz fəaliyyəti zamanı müxtəlif maliyyə risklərinə məruz qalır: bazar riski (xarici valyuta riski, ədalətli dəyərin faiz riski, nağd pul axının faiz riski və qiymət riski), kredit riski və likvidlik riski. Cəmiyyətin ümumi risklərin idarəetmə proqramı əsasən maliyyə bazarının dəyişkən olmasına istiqamətləndirilmiş və onların Cəmiyyətin maliyyə vəziyyətinə potensial təsirinin minimallaşdırılmasına yönəlmişdir. Cəmiyyət müəyyən risklərin təsirini azaltmaq məqsədi ilə hər hansı bir derivativlərdən istifadə etmir.

**Bazar riski**

*Xarici valyuta riski.* Cəmiyyət beynəlxalq kredit təşkilatlarından kredit almır və müxtəlif valyutalarda uzunmüddətli kreditlər cəlb etmir. Buna görə də xarici valyuta riskinə məruz qalmır.

*Faiz dərəcəsi riski.* Cəmiyyət, faiz hesablanan uzunmüddətli kreditlərdəki bazar dəyərinin dəyişməsi nəticəsində faiz dərəcəsi riskinə məruz qalır.

**Kredit riski.** Cəmiyyəti potensial olaraq kredit riskinə məruz qoyan maliyyə aktivləri pul və pul vəsaitlərinin ekvivalenti, derivativ maliyyə alətləri və banklara və maliyyə institutlarına

## 16. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ (davamı)

yerləşdirilmiş depozitlər, həmçinin, topdan və pərakəndə satış üzrə kredit təsiri, qüvvədə olan alacaqlar və öhdəliyə götürülmüş əməliyyatlar daxil olmaqla, təşkil edir. Cəmiyyəti potensial olaraq kredit riskinə məruz qoyan maliyyə aktivləri əsas etibarilə debitor borclarından ibarətdir. Bu borcların ödənilməsi əhəmiyyətli dərəcədə digər müəssisələrin maliyyə vəziyyətindən asılıdır.

Nağd pul, qoyuluş zamanı onun qaytarılmaması üzrə minimal riskə malik olan maliyyə qurumlarında yerləşdirilir.

**Likvidlik riski.** Düzgün likvidlik risk idarəsi kifayət qədər pul vəsaiti və qiymətli kağızların təmin edilməsi, gözlənilən kredit imkanları vasitəsilə fondun mövcudluğu və bazar mövqeyinin

dayandırıla bilinməsi deməkdir. Cəmiyyətin likvidlik idarəsi ilə əlaqədar hər hansı bir siyasəti və ya qaydaları mövcud deyil.

**Maliyyə alətlərinin ədalətli dəyəri.** Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Cəmiyyət tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

Maliyyə aktivləri amortizasiya olunmuş maya dəyərində əks olunurlar. Normal halda maliyyə aktivlərinin ədalətli dəyəri elə onların qalıq dəyərlərinə bərabər olur. Sabit faiz dərəcəsi ilə təqdim edilən maliyyə alətlərinin təxmini ədalətli dəyəri həmin alətlər ilə bağlı gələcəkdə nəzərdə tutulan pul vəsaitləri axınlarının cari faiz dərəcəsi ilə diskontlaşdırılmasına əsasən hesablanılır. İstifadə olunan diskont dərəcəsi qarşı tərəfin kredit riskinin dərəcəsindən asılıdır. Debtor borclarının və digər borcların ədalətli dəyəri onların qalıq dəyərinə yaxın rəqəmdir.

Öhdəliklər də amortizasiya olunmuş maya dətərində əks olunurlar. Sabit faizli və müəyyən olunmuş ödəmə tarixinə malik və hərrac bazarında qiyməti müəyyənləşməyən alətin ədalətli dəyəri həmin alət ilə bağlı gələcəkdə nəzərdə tutulan pul vəsaitləri axınlarının cari faiz dərəcəsi ilə diskontlaşdırılmasına əsasən hesablanılır. Tələbolunanadək ödənilən depozitlərin ədalətli dəyəri tələb olunan məbləğin ödənilməsi planlaşdırılan ilk gündən etibarən diskonlaşdırılması nəticəsində alınan dəyərə yaxın məbləğdə təxmin edilir.

## 17. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat dövründən sonra açıqlanma üçün heç bir vacib əməliyyat qeydə alınmamışdır.